# QAQOUZ DASTANLARINDA "KİTABİ - DEDE QORQUD" MOTİVLERİ

Dr. Güllü YOLOĞLU

Xristianlığın provoslav qoluna xidmet eden qaqouz türklerinin şifahi xalq edebiyyatı janrları arasında dastanlar xüsüsi yer tutarlar. Onların sırasında "Dengiboz" "Koroğlu", "Arzu xem Kamber", "Tepegöz" ve başqa dastanlara rast gelmek olar.

Qaqouz tedqiqatçısı L. Çimpoyeşin 1988-ci ilde Kabarda-Balkariyanın qaqouz kendlerinden topladığı materiallar arasında olan "Dengiboz" dastanı Kısacik Aleksandradan yazıya alınmışdır. eslen Bessarabiyanın indiki Vulkaneşt rayonunundan olan Kisacik de bu dastanı ata-anasından eşitmişdir. Burada yeddi il ata-anasından, sevgilisinde n, elinde n, obasından uzaq düşerek zindanda qalan genc gęlen, keçen yolçulardan, tacirlerden doğma diyardan bir xe be r vermelerini isteyir:

Bir vatan oldu bize
Zındanın taşı,
Nerde n qeler-qeçersin
Bezerqen başı...

Bezirgan başı igidi tanıyır, öna anasının iki gözünün de kor olduğundan, sevgilisinin elden getdiyinden ve s. danışır. Bunu eşinden igid yeddi il bir kimseye yaxınlıq vermeyen atı Dengibozu haylayır, zindandan qurtularaq vetene telesîr. Destan ele burada da yarımçıq qalır. "Kitabi-Dede Qorqud"un "Bamsı Beyrek" boyunda baş veren sonrakı hadiseler burada öz aksini tapınır...

Eslinde sözü geden "Dengiboz" dastanı ele KDQ-un "Qambörenin oğlı Bamsı Beyrek boyını beyan eder. xanım, hey..." boyunun qaqouz variantıdır. Bu tebiilik bir de ondan doğur ki, qaqouzların bir qisminin indi de yaşadığı Ruminiyada, qüsusile de Tuna (Dunay) ve Qara Deniz arasında Dobruca adlanan yerde rumınlarla esasen, 1262-ci ilden gelmeye başlayıblar. Özlerini Dobruca Tatarları adlandıran hemin türklerin "Arız man Kamber", "Kıylan Batır", "Şora Batır" ve s. Kimi dastanları arasında "Bayböri ulı Beyrek Batır" dastanı da var. Dil eyniliyi, yaxınlığı, etnik qohumluq şeraitinde bu cür dastanların ya tam, ya da ki, ayrı-ayrı epizodların bir-birinin Oğuz edebiyyatına keçmesi tebiidir.

Qaqouzların "Dengiboz" adlandırdıqları yarımçıq ve nağıl ünsürlerinin üstünlük teşkil etdiyi bu dastanların "Baybori ulı Beyrek Batır" dastanının alayarımçıq yadda qalan hissesidir.

Xatırladaq ki, "Bayböri ulı Beyrek Batır" dastanında qehremanın atının adı Dengiboz deyil, Bengibozdur. Şifahi şekilde dilden dile keçen folklor nümunelerinde bu cür deyişiklikler tebiidir.

Onu da xüsisi qeyd etmek lazımdır ki, Dobruca tatarlarının haqqında danışdığımız dastanı "Bamsı Beyrek" boyundan da dolğun ve mentiqe uyğundur. Hetta dastanın evvelindeki "Göyçek Fatma" nağılına benzer epizod bele, burada özüne ele yer edib ki, mehz hemin sehne Beyrek Batırla atı Bengiboz arasındakı münasibetin daha yaxşı anlaşılmasına xidmet edir...

Qaqouz dastanlarının bir çoxu dövrümüze türküler şeklinde gelib çatmıştır. L. Pokroskaya ve M. Durbaylo onları ballada-türküleri adlandırırlar. KDQ dastanlarının "Duxa qoca oğlı Deli Dumrul boyını beyan eder, xanım, hey" boyu ile sesleşen bele türkülerden biri "Sarı Yılan" türküsüdür. Burada Yanka beline dolanan ilandan canını qurtarmağa çalışır, evvel atasına, sonra anasına yalvarır, lakin heç biri ona kömek etmir. Yalnız sevgilisi özünü tehlükeye ataraq onu ilanın elinden qurtarmağa hazırdır.

Bu türkünün başqa variantları "İlyanka" ve "Yarim var, deerim" türkülerdir. Bu türkülerde esas meqsed "Duxa qoca oğlı Deli Dumrul" boyunda olduğu kimi, iki mehebbet qarşı-qarşıya qoyulur, valideyn mehebbeti ile sevgili mehebbetinin müqayisesi gedir. İster KDQ-un sözü geden boyunda, isterse de "Sarı Yılan", "İlyanka", "Yarim var, deerim" qaqouz türkülerinde heyat yoldaşının, sevgilinin, nişanlının mehebbetinin daha güclü olduğu gösterilir. Bu da islam exlaq normlarına uyğun olmadığı üçün bir daha KDQ dastanlarının menşeyinin gedimliyinden xeber verir.

Bunlardan başqa qaqouz dastanları arasında KDQ-un "Basat Depegözi öldürdiği boyı beyan eder, xanım hey!..." boyunun müxtelif variantlarında da dolaşmaqdadır.

Rus tedqiqatçısı V. Moşkov qaqouzlar arasında "Tepegöz" dastanının bir neçe variantını toplamışdır. Onlardan birinde Tepegöz insanlara qan uddurur, onları tutub yeyir. Adamlardan biri şişle onun gözünü çıxardır, qalanlar da qoyun derisi geyinib qoyunlara qarışaraq mağaradan çıxıb qaçırlar.

Başqa bir variantda Tepegöze rast olan üç nefreden birini Tepegöz yeyir, ikincisi qoyun derisi ile qurtulur, qırx addım qaçıb qışqırır. Tepegöz bağlı dastanın iyirmi sekkizinci variantında qoyun otaran iki qardaşdan birini Tepegöz yeyir. O biri qardaş tez eşşeyinin üstündeki qoyun derisini götürüb geyinir. Onu tuta bilmeyen Tepegöz ondan ciyer bişirmesini xahiş edir. Bu vaxt olan onun gözüne duz tökür. Kor olmuş Tepegöz öz üzüyünü oğlana verir. Oğlan onu barmağına taxan kimi üzük başlayır qışqırmağa: "Bura gel!". Tepegöz d ses gelen teref cumur. Oğlan ne qeder çalışırsa, üzüyü çıxara bilmir, axırda barmağını üzük qarışıq kesib quyuya tullayır. Quyundan gelen sesi eşiden Tepegöz özünü ora atır ve ölür.

Qısa-qısa söylenilen bu variantlardan ferqli olaraq KDQ'un "Basat Depegözi öldürdügi boyı beyan eder, xanım, hey!" boyu bediilik ve hadiselerin ardıcıllığı baxımından daha kamil olsa da, özülü teşkil eden ilkin materialın eyni köke bağlılığı aydındır. Eger qaqouz xalqının Tepegöz haqqındakı söyledikleri şifahi dolaşmışdırsa, KDQ dastanlarının ustad bir yazar elinden çıxdığı mübahise doğurmamalıldır.

**EDEBİYYAT**

1. L. Çimpoeş. Evelki yılların sesi.- "Ana sözü", 9 Oktyabr 1988, s. 3.
2. Bazcigit. Dobruca tatar masalları. (Toplayan, ön sözün müellifleri ve hazırlayanlar: Dr. Nedret Ali Mahmut, Dr. Enver Mahmut). Bukureşt, 1988, 260 s.
3. L. Çimpoeş. Dastannıy epos u qaqauzov. - Kişinev, 1997, 198 s.
4. Kitabi-Dede Qorqud. -Baskı, Yazıçı, 1988.
5. Atanas Manof. Qaqouzlar (Hıristiyan Türkler). (Bulqarçadan çeviren Türker Acaroğlu). -Ankara, Varlık Neşriyatı, 1939, s. 73-74.
6. Ballada Türküleri (Xazırlayan M.A. Durbaylo. -Kişinev, 1991)
7. Qaqouz folkloru (Xazırlayan N. Baqboğlu. -Kişinyov, 1969, s. 66, 70)
8. Budjaktan sesler. (Xazırlayan D. Tanasbolu. -Kişinyov, 1959, s. 55).